# **Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin *tabeliyində* Talassemiya Mərkəzi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin *tabeliyində* Talassemiya Mərkəzinin saxlanılması xərcləri 2018-ci ildən etibarən dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində ayrıca sətirlə nəzərdə tutulsun.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi bu qərardan irəli gələn məsələləri həll etsinlər.

3. Bu qərar 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 15 avqust 2017-ci il
№ 330

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 19 yanvar 2018-ci il tarixli **19** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 23 yanvar 2018-ci il, № 15)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 19 yanvar 2018-ci il tarixli **19** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 23 yanvar 2018-ci il, № 15)** ilə qərarın adında və 1-ci hissəsində “**Respublika**” sözü “**tabeliyində**” sözü ilə əvəz edilmişdir.